*Hər bir ali təhsil ocağının nüfuzu və səviyyəsi təkcə orada aparılan tədris prosesi ilə deyil, həm də həyata keçirilən elmi-tədqiqat işləri ilə ölçülür. Təqdirəlayiq haldır ki, Azərbaycanın ali məktəbləri sırasında xüsusi yeri olan ADA Universiteti hər iki istiqamətdə nümunəvi fəaliyyəti ilə seçilir.*








# AZƏRBAYCAN XALQININ TARİXİ MİRASININ QORUNMASINA TÖHFƏ

## *ADA Universiteti "Azərbaycan" qəzeti və "Vətən dili" dərsliyinin latın qrafikasında nəşrlərini ictimaiyyətə təqdim edib*

Martın 4-də bu qabaqcıl təhsil ocağında Azərbaycanın tarixinin öyrənilməsi nöqteyi-nəzərdən iki mühüm kitabın təqdimat mərasimi keçirilmişdir. Söhbət müəllifləri O.A.Çernyayevski və S.H.Vəlibəyov olan "Vətən dili" dərsliyinin birinci və ikinci hissəsindən, eləcə də "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 - 28 aprel 1920-ci il tarixləri arasında 443 nömrəsində dərc edilmiş materialları özündə ehtiva edən "Azərbaycan qəzeti. 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin tam külliyatı" 20 cildlik nəşrin I (sentyabr-oktyabr 1918) və II (noyabr 1918) cildlərindən gedir. Hər iki kitab ADA Universitetinin təşəbbüsü, təşkilatçılığı və maliyyə dəstəyi ilə ərsəyə gətirilib.

Tədbirdə giriş sözü ilə çıxış etmiş ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd etmişdir ki, xüsusi tarixi əhəmiyyətə malik yazıların təkcə müasir Azərbaycan dilinə transliterasiya edilməsi ilə deyil, həmçinin o dövrün ifadələrinin müasir Azərbaycan dilinə uyğunlaşdırılması neçə-neçə tarixi araşdırmalara imkan yaradır, alimlərimiz bu istiqamətdə neçə elmi əsər yaza, dissertasiyalar müdafiə edə bilərlər. Çünki o dövrün məqalələri, "Azərbaycan" qəzetində çap olunmuş materiallar Azərbaycan Xalq Cümhuriyyətinin tarixini əks etdirir. O zamankı Azərbaycan hökumətinin qərarları, parlament üzvlərinin çıxışları, Bakıda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr həm tarixçilərin, həm də geniş oxucu kütləsinin diqqətinə çatdırılır. Xüsusilə hazırkı dönəmdə müasir Azərbaycan üçün taleyüklü əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə aid materialların oxucularda böyük maraq doğuracağı şübhəsizdir. Bununla bərabər, Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlərlə necə münasibət qurması, o illərin sosial-siyasi ab-havası həmin dövrdə öncül yerlərdə olan "Azərbaycan" qəzetinin səhifələrində öz əksini tapırdı. XX əsrin əvvəlində sözügedən qəzetin redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim kimi qabaqcıl ziyalılarımız olmuşlar.

Transliterasiya işini yüksək səviyyədə həyata keçirmiş filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli və filoloq, tərcüməçi Azad Ağaoğlu, artıq qeyd etdiyimiz kimi, həm də müəyyən termin və ifadələrin aydın izahını verməklə, oxucuların və mütəxəssislərin mətnləri daha aydın və düzgün şəkildə mənimsəmələri üçün maksimum səy göstərmiş və böyük uğura nail ola bilmişlər.

"Vətən dili" dərsliyinə gəldikdə isə, rektor Hafiz Paşayev qeyd etmişdir ki, ADA Universiteti son illər Azərbaycanın mənəvi irsinin əski əlifbada olan parlaq nümunələrinin latın qrafikasında oxuculara çadırılması istiqamətində bir sıra təşəbbüslər irəli sürmüş və onları




yüksək səviyyədə reallaşdırmışdır. "Vətən dili" dərsliyinin də bütövlükdə, yəni hər iki hissəsi bir kitaba daxil edilməklə oxuculara, eləcə də dilçilik sahəsində fəaliyyət göstərən alim və mütəxəssislərə anlaşılan dildə təqdim edilməsi zərurəti nəzərə alınaraq sözügedən dərsliyin yenidən çapını hazırlamaq qərarına gəlinmişdir. Xüsusilə qeyd edilməlidir ki, "Vətən dili" dərsliyi həm Qori, həm də onun varisi olan Qazax Müəllimlər Seminariyasının rəsmi dərsliyi olmuşdur.

Kitabın tərtibçiləri olan Azərbaycan dilinin gözəl bilicisi, xalqımızı dərindən sevən Aleksey Osipoviç Çernyayevski, Səfərəli bəy Vəlibəyov o dönəmdə yaşayan Azərbaycan ziyalılarını bu dərsliyin ərsəyə gəlməsinə cəlb etmək üçün səylərini əsirgəməmişlər. Onlar dövrlərinin tanınmış şairi Həsənağa xan Qaradağskidən didaktik şeir nümunələrini xahiş etmiş və dərsliyə qırxa yaxın ilk təcrübə olan uşaq şeirlərini daxil etmişlər, məhz bu şeirlər sonralar Abdulla Şaiq yaradıcılığına təsir etmiş, peşəkar uşaq ədəbiyyatımızın formalaşması ilə nəticələnmişdir.

Təqdimatda dövlət və hökumət rəsmiləri, elmi ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə, həmçinin Xalq şairi Nəriman Həsənzadə, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi, tarixçi alim İradə Bağırova, Milli Məclisin deputatları Sabir Rüstəmxanlı, Musa Qasımlı və başqaları çıxış ediblər.

Çıxışlarda bu kitabların nəşri Azərbaycanın elmi, ictimai, mədəni həyatında mühüm hadisə kimi dəyərləndirilib.

ADA Universitetinin rektoru Hafiz Paşayevin diqqəti sayəsində işıq üzü görmüş hər iki kitab Azərbaycanın müasir tarixinin öyrənilməsində, XX əsrin əvvəlində baş vermiş hadisələrin çağdaş dövrümüzlə nə qədər oxşar olmasının təhlilində əvəzsiz rol oynayır.

Göründüyü kimi, ADA Universiteti Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə öz əvəzsiz töhfələrini verməklə həm gənc nəslin yetişdirilməsində, həm də tarixi həqiqətlərin üzə çıxanlmasında əvəzsiz rol oynayır.

**Emin QASIMOV,**
**"Respublika".**